# Azərbaycan əsgəri Vətən müharibəsində bundan sonra heç kimin poza bilməyəcəyi bir tarix yazdı

***Bu il noyabrın 8-də Azərbaycan xalqı müstəqilliyinin bərpasından ötən tarixinin bəlkə də ən böyük hadisəsini - Zəfər Gününü qeyd edir. Keçən il sentyrabrın 27-də başlayan və müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun uğurla apardığı və qalibiyyətlə yekunlaşdırdığı 44 günlük Vətən müharibəsində əldə olunan Zəfərin birinci ildönümünü xalqımız böyük qürurla, təntənə ilə qarşılayır. Həqiqətən də, bu, böyük, misilsiz bir qələbədir.***

Məlumdur, SSRİ-nin mövcudluğunun son illərindən, dağılmasının isə ilk həftələrindən etibarən, Ermənistanın Dağlıq Qarabağa iddiası üzərində Azərbaycana qarşı apardığı təcavüzkar siyasətin nəticələri çox ağır olmuşdu. Bir sıra ölkələrdən hərtərəfli dəstək alan Ermənistan bu yardımların, himayənin sayəsində 1991-93-cü illərdə nəinki Dağlıq Qarabağı, onun göz bəbəyi olan Şuşanı, həm də keçmiş vilayətin ətrafındakı 7 rayonumuzu işğal edə bilmişdi. Bu işğal xalqımıza çox dərin məhrumiyyətlər hesabına başa gəldi. Ərazilərimiz itirildi, bir milyona yaxın soydaşımız məcburi köçkünə çevrildi, milli-mədəni irsimiz dağıdıldı, sərvətlərimiz talan olundu, vətəndaşlarımıza və dövlətə on milyardlarla dollar dəyərində maddi ziyan vuruldu.




Bu sözləri söhbətində "Qızılbaş" Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri Aqil Ələsgər dedi və bildirdi ki, Azərbaycan 1994-cü ildə elan olunan uzunmüddətli atəşkəs rejimi dövründə münaqişənin sülh yolu ilə həllinə maksimum səy göstərsə də, Ermənistan öz destruktiv mövqeyində qalaraq qarşıdurmanın daha da dərinləşməsinə səbəb olan yol seçdi. Lakin əlbəttə, Prezident İlham Əliyevin də dəfələrlə bəyan etdiyi kimi, Azərbaycan işğal faktı ilə barışmadı. Bu baxımdan, ötən il sentyabrın 27-də başlayan 44 günlük müharibə tam qanunauyğunluq kimi qiymətləndirilməlidir.

Çox əlamətdar haldır ki, Azərbaycan Ordusu bu savaşda sadəcə, qalib gəlmədi. Silahlı Qüvvələrimiz həm də müasir hərb sənətinin obrazlı desək, "əyani vəsait"ini bütün dünyaya nümayiş etdirdi. Ona görə də təsadüfi deyil ki, hətta ABŞ kimi ölkənin, o cümlədən, başqa aparıcı dövlətlərin hərbi strukturları Azərbaycanın modern savaş taktikasının incəliklərini bu gün tədqiq edir, o təcrübəni mənimsəməyə çalışırlar. Azərbaycan Ordusu bu müharibədə əfsanəvi qəhrəmanlıq göstərdi. Vətən torpaqlarının azad edilməsi üçün gözünü qırpmadan ölümə meydan oxuyan Azərbaycan əsgəri gerçəkdən, bundan sonra heç kimin poza bilməyəcəyi bir şanlı tarix yazdı.

Aqil Ələsgər daha sonra dedi: "Azərbaycan son bir ildə işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirdiyi genişmiqyaslı bərpa işləri həyata keçirərək, xalqımızın yalnız döyüşmək deyil, həm də quruculuq potensialının nə qədər böyük olduğunu göstərdi. Mübaliğəsiz deyə bilərik ki, bu gün həmin ərazilər nəhəng tikinti meydançasını xatırladır. İnfrastruktur bərpa edilir, yollar çəkilir, artıq Füzuli hava limanı kimi böyük layihə reallaşdırılıb və sair. Konkret desək, son bir il ərzində işğaldan azad olunmuş ərazilərimizdə həyat yenidən canlandırılır.

Qırx dörd günlük Vətən müharibəsində qazanılan Zəfər xalqımızı qalib xalqa, Silahlı Qüvvələrimizi isə qalib orduya çevirib. Heç şübhə yoxdur ki, cənab Prezidentin rəhbərliyi altında həyata keçirilən siyasət nəticəsində nə xalqımızın, nə də ordumuzun bu statusu heç vaxt dəyişməyəcək. Böyük qələbəmiz münasibətilə xalqımızı ürəkdən təbrik edir, uğurlarımızın davamlı olmasını arzulayıram".

***V.BAYRAMOV, "Xalq qəzeti"***


Xalq qəzeti.- 2021.- 5 noyabr.- S.6.